*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2015-ci il 25 may tarixli 10/87 saylı Qərarı ilə təsdiq edilmiş, 2017-ci il 7 aprel tarixli 2/5 saylı, 2019-cu il 15 mart tarixli 1/3 saylı, 2021-ci il 3 sentyabr tarixli 3/9 saylı, 2023-cü il 6 fevral tarixli 1/2 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı, 2024-cü il 27 iyun tarixli 14/51 saylı və 2024-cü il 2 iyul 16/59 saylı qərarları ilə dəyişikliklər edilmişdir.*

# Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması

# Q A Y D A L A R I

Azərbaycan Respublikasının Milli Məclisinə (bundan sonra - Milli Məclis) seçkilərdə namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və namizədlərin qeydə alınması Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 53-cü, 54-cü, 56-cı, 57-ci, 58-ci, 59-cu, 60-cı, 146-cı, 147-ci və 148-ci maddələri ilə və bu Qaydalarla tənzimlənir.

## 1. Ümumi müddəalar

1.1. Müvafiq seçki komissiyası Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş sənədlərdə, hər bir namizədin imza vərəqələrində olan məlumatların düzgünlüyünü və namizədlərin irəli sürülməsi prosedurunun Seçki Məcəlləsinin tələblərinə uyğunluğunu yoxlayır. Müvafiq seçki komissiyası namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçicilərin Seçki Məcəlləsinə uyğun olaraq təqdim etdikləri tərcümeyi-hala aid məlumatların və namizəd haqqında digər məlumatların düzgünlüyünü yoxlayır (Seçki Məcəlləsinin 59.1-ci maddəsi).

1.2. Müvafiq seçki komissiyası Seçki Məcəlləsinə uyğun olaraq təqdim edilmiş məlumatların və faktların düzgünlüyünü yoxlamaq məqsədilə müvafiq orqanlara müraciət edə bilər. Həmin orqanlar seçki komissiyasının müəyyənləşdirdiyi müddətdə, lakin səsvermə gününə 40 gündən az vaxt qalmışsa, ən geci 1 gün müddətində yoxlamanın nəticələri barədə seçki komissiyasına məlumat verməlidirlər. Müvafiq seçki komissiyası öz qərarı ilə imza vərəqələrindəki imzaların düzgünlüyünü və müvafiq məlumatları yoxlamaq üçün ekspertlərdən ibarət işçi qrupları yarada bilər. Həmin işçi qruplarına bu qrupu yaradan seçki komissiyasının üzvü sədrlik etməlidir. Belə yoxlamaya ekspertlər, müvafiq orqanların mütəxəssisləri sırasından ekspertlər, habelə əhalinin qeydiyyatını

həyata keçirən xüsusiləşdirilmiş orqan və təşkilatların mütəxəssisləri cəlb edilə bilər. Onlar rəy hazırlayarkən imza vərəqələrində olan məlumatların düzgünlüyünü müəyyənləşdirmək üçün seçici siyahılarından və vətəndaşların qeydiyyat sistemindən istifadə edə bilərlər.

1.3. İmza vərəqələri yoxlanılarkən müvafiq seçki komissiyası namizədləri, onların səlahiyyətli nümayəndələrini, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrini Seçki Məcəlləsinin 59.3-cü maddəsinin tələbinə uyğun olaraq məlumatlandırmaqla, onların komissiyada iştirakını təmin edə bilər.

1.4. İmzaların yoxlanılması o vaxt dayandırılır ki, düzgün imzaların sayı namizədin qeydə alınmasına əsas verir və ya qalan imzaların sayı namizədin qeydə alınması üçün kifayət olmur. Yoxlamanın nəticələrinə görə seçici imzalarının düzgünlüyü və ya qeyri-düzgünlüyü təsdiqlənməlidir (Seçki Məcəlləsinin 59.4-cü maddəsi).

1.5. İmza vərəqələri müvafiq seçki komissiyasına təqdim edilənədək namizədi irəli sürənlərin imza vərəqələrində pozduqları imzalar o şərtlə yoxlanılmır və nəzərə alınmır ki, imza toplayanlar tərəfindən vərəqələrdə bu pozulmalar haqqında müvafiq qeydlər aparılsın (Seçki Məcəlləsinin 59.5-ci maddəsi).

1.6. İmza vərəqələri yoxlanılarkən eyni adamın bir neçə imzası aşkar edilərsə, yalnız bir imza etibarlı, digər imzalar isə qeyri-düzgün sayılır (Seçki Məcəlləsinin 59.6-cı maddəsi).

1.7. Seçki Məcəlləsinin 59.6-cı maddəsində göstərilənlərlə yanaşı, aşağıdakılar qeyri-düzgün imzalar hesab edilir (Seçki Məcəlləsinin 59.7-ci maddəsi):

1.7.1. müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin yerli qurumları) arayışı, yaxud Seçki Məcəlləsinin 59.2-ci maddəsinə uyğun olaraq seçki komissiyasının işinə cəlb edilmiş ekspertin rəyi əsasında seçki hüququ olmayan və məlumatları qeyri-düzgün göstərən seçicilərin imzaları (Seçki Məcəlləsinin 59.7.1-ci maddəsi);

1.7.2. namizəd irəli sürülməsi haqqında müvafiq seçki komissiyasına bildiriş göndərilənədək imza vərəqələrinə daxil edilmiş seçici imzaları (Seçki Məcəlləsinin 59.7.2-ci maddəsi);

1.7.3. Seçki Məcəlləsinin 57.1-ci maddəsinin tələblərinin pozulması ilə əlaqədar etibarsız sayılmış imzalar (Seçki Məcəlləsinin 59.7.3-cü maddəsi);

1.7.4. müxtəlif şəxslərin adından bir şəxs tərəfindən və ya bir şəxsin adından müxtəlif şəxslər tərəfindən qoyulmuş imzalar (Seçki Məcəlləsinin 59.7.4-cü maddəsi);

1.7.5. imza vərəqəsinə əl yazısı ilə qoyulmayan və ya karandaşla qoyulan imzalar (Seçki Məcəlləsinin 59.7.5-ci maddəsi).

1.8. İmza vərəqələrində seçici imzalarının qoyulması tarixində düzəliş edildikdə, bu imzalar o şərtlə düzgün sayılır ki, imza vərəqəsini təsdiq edən şəxslər həmin düzəlişləri təsdiqləmiş olsunlar (Seçki Məcəlləsinin 59.8-ci maddəsi).

1.9. İmza vərəqələri imza toplayan şəxsin, habelə namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinin əl yazısı

qaydasında imzası ilə təsdiq edilməyibsə və ya səlahiyyətli nümayəndənin imzası qeyri-düzgündürsə, imza vərəqələrində olan bütün imzalar etibarsız sayılır (Seçki Məcəlləsinin 59.9-cu maddəsi).

1.10. Seçki Məcəlləsinin 59.7–59.9-cu maddələrində göstərilmiş hallar istisna olmaqla, imza vərəqələrində Seçki Məcəlləsinin tələblərinə uyğun gəlməyən yazı sırası aşkar edildikdə, yalnız bu sırada olan imza etibarsız sayılır (Seçki Məcəlləsinin 59.10-cu maddəsi).

1.11. Seçki Məcəlləsinin 59.6–59.10-cu maddələrinə əsasən imzanın etibarsızlığı müəyyənləşdirilməyibsə, imzaların düzgünlüyü və ya imzaların sayının hesablanmasının düzgünlüyü yoxlanılarkən imza vərəqələrində müəyyənləşdirilmiş qaydada edilən düzəliş və qeydlər imzaların etibarsız sayılması üçün əsas götürülə bilməz (Seçki Məcəlləsinin 59.11-ci maddəsi).

1.12. Seçki Məcəlləsinin 59.6–59.10-cu və 147-ci maddələrinə uyğun olaraq etibarsız sayılan imzalar çıxıldıqdan sonra qalan seçici imzalarının sayı qeydiyyat üçün lazım olan saydan az olarsa, namizəd qeydə alınmır (Seçki Məcəlləsinin 59.12-ci maddəsi).

1.13. Hər namizədin imza vərəqələrinin yoxlanılmasının nəticələri haqqında işçi qrupunun rəhbəri, müvafiq seçki komissiyasının həlledici səs hüquqlu üzvü tərəfindən protokol tərtib edilir, imzalanır və qərar qəbul olunması üçün seçki komissiyasına təqdim edilir. Protokolda seçicilərin yoxlanılmış imzalarının sayı, habelə əsası qeyd olunmaqla etibarsız sayılmış imzaların sayı göstərilir (Qaydalara 2 saylı əlavə).

1.14. Protokol seçki komissiyasının müvafiq qərarına qoşulur. Protokolun surəti namizədin qeydə alınması məsələsinə baxan seçki komissiyası iclasının başlanmasına azı 24 saat qalmış namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə verilir. İmzalar yoxlanılarkən lazımi sayda seçici imzalarının olmadığı aşkar edildikdə namizəd, habelə siyasi partiya, siyasi partiyaların bloku işçi qrupunun rəhbərinin təsdiq etdiyi protokolun surəti ilə yanaşı, seçici imzalarının etibarsız sayılmasının əsasları göstərilməklə müvafiq qovluğun nömrəsi, müvafiq imza vərəqəsindəki sətrin nömrəsi qeyd olunan yoxlamanın nəticəsi barədə cədvəlin surətini də almaq hüququna malikdir (Seçki Məcəlləsinin 59.13-cü maddəsi).

1.15. Namizədin irəli sürülməsinin təsdiq edilməsi və qeydə alınması üçün təqdim edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması bu sənədə əlavə edilmiş cədvəl üzrə (Qaydalara 1 saylı əlavə) aparılır.

## 2. Namizədin dairə seçki komissiyası tərəfindən qeydə alınması

2.1. Müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər seçki sənədlərini qəbul etdikdən sonra 7 gün müddətində qanunvericilikdə nəzərdə tutulmuş qaydada sənədlərlə iş aparmalı və məlumatları yoxlayaraq namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir (Seçki Məcəlləsi 60.1-ci maddəsi).

2.2. Qərarda namizədin kim tərəfindən irəli sürülməsi, qeydə alınmanın və ya

qeydiyyatdan imtinanın əsasları, qanunvericiliyin müvafiq normaları, qərarın qəbul edilmə tarixi və vaxtı göstərilməli, qanunda nəzərdə tutulmuş qaydada imzalanmalıdır.

2.3. Namizədin qeydə alınması və ya qeydiyyatdan imtina edilməsi barədə qərarın surəti dairə seçki komissiyası tərəfindən həmin qərarın qəbul edildiyi gündən etibarən bir gün müddətində namizədə, namizədi irəli sürmüş siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə verilməlidir (göndərilməlidir) (Seçki Məcəlləsinin 60.2-ci maddəsi).

2.4. Qeydə alınmış hər bir namizədə dairə seçki komissiyası tərəfindən qeydiyyat vəsiqəsi verilir.

2.5. Qeydə alınmış deputatlığa namizədlər barədə məlumatlar qeydiyyatdan sonra 24 saat müddətində media subyektlərinə təqdim edilir (Seçki Məcəlləsinin 60.7-ci maddəsi).

2.6. Qeydə alınmış deputatlığa namizədlərin siyahısı səsvermə gününə azı 20 gün qalmış Mərkəzi Seçki Komissiyası tərəfindən dövri nəşrlərdə dərc edilir.

*Qaydalara 1 saylı əlavə*

## Məlumatları yoxlama

## CƏDVƏLİ

| ***I mərhələ – Namizədliyin irəli sürülməsi***<br><br>Passiv seçki hüququna malik olan subyektlərin namizədliklərinin irəli sürülməsinin təsdiq edilməsi üçün dairə seçki komissiyalarına təqdim olunan seçki sənədlərindəki müvafiq məlumatların yoxlanılması aşağıdakı qaydada həyata keçirilir. | ***Sənəd və məlumatların yoxlanılması mümkün olan orqan və qurumların siyahısı*** |
|---|---|
| **Namizədə aid tələblər:**<br>**Məlumat:** Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinə əsasən:<br>a) Azərbaycan Respublikasının passiv seçki hüququna malik vətəndaşı olması;<br>**b) seçkilərdə iştirak etmək hüququna malik olması.** | a, b) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri. |
| ***Namizəd özü tərəfindən irəli sürüldükdə, dairə seçki komissiyası tərəfindən yoxlanılmalı sənədlər və namizədliyin irəli sürülməsi prosedurunun qanunauyğunluğu*:**<br>a) deputatlığa namizədliyin irəli sürülməsinə dair bildiriş *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/38 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 1 saylı əlavəyə uyğun)*;<br>b) namizədin Seçki Məcəlləsinin 53-cü maddəsinin tələblərinə uyğun tərtib edilmiş öhdəlik ərizəsi [ərizədə deputatlığa namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü), məhkumluğu, vətəndaşlığı və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar və s., habelə deputat seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir] *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/38 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 2 saylı əlavəyə uyğun)*. | |

| | |
|---|---|
| **Namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə:**<br>c) namizəd tərəfindən verilən səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-2 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 3b saylı əlavəyə uyğun);*<br>ç) namizədliyin irəli sürülməsi prosedurunun Seçki Məcəlləsinin tələbinə uyğunluğu. | c) vəkalətnaməni təsdiq etmiş notariat ofisi. |
| **Yoxlanılmalı məlumatlar**<br>***Bildirişdəki məlumatlar:***<br>a) namizədin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) yaşayış yerinin ünvanı;<br>ç) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>d) əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü);<br>e) imza, tarix. | a, b, c, ç) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>d) şəxsin əmək münasibətlərində olduğu qurum və şəxslər; müvafiq vergi orqanları. |
| **Öhdəlik barədə ərizədəki yoxlanılmalı məlumatlar:**<br>a) namizədin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) yaşayış yerinin ünvanı;<br>ç) təhsili;<br>d) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>e) əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü);<br>ə) siyasi partiyaya mənsubluğu;<br>f) namizədin Azərbaycan Respublikasının vətəndaşı olması;<br>g) namizədin xarici ölkə vətəndaşlığının olub-olmaması;<br>ğ) 5 ildən çox müddət ərzində xarici ölkə ərazisində yaşamaqla əlaqədar əmələ gələn davamlı, möhkəm və sabit münasibətlərlə bağlı başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması;<br>**Namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu varsa, ərizədə göstərilmiş yoxlanılmalı məlumatlar:**<br>h) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və | a, b, c, d, f, g, ğ) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>ç) müvafiq ali təhsil müəssisəsi və ya Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi; respublikadan kənarda təhsil alan şəxslər barəsində olan məlumatlar da Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi vasitəsilə;<br>e) şəxsin əmək münasibətlərində olduğu qurum və şəxslər; müvafiq vergi orqanları;<br>ə) siyasi partiyanın daimi fəaliyyət göstərən orqanı (ali orqan, rəhbər orqan, icra aparatı və s.);<br>h, x) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi. |

| | |
|---|---|
| nömrəsi;<br><br>x) xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa, bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı;<br>ı) imza, ərizənin yazılma tarixi. | |
| **Deputatlığa namizəd tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsinin yoxlanılması:** | |
| vəkalətnamənin qanunauyğunluğu. | vəkalətnaməni təsdiq etmiş notariat ofisi. |
| **Namizəd seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürüldükdə, dairə seçki komissiyası tərəfindən yoxlanılmalı sənədlər və namizədliyin irəli sürülməsi prosedurunun qanunauyğunluğu:**<br>a) namizədin irəli sürülməsinə təşəbbüs edilməsi barədə bildiriş *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/38 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 6 saylı əlavəyə uyğun);*<br>b) namizədin Seçki Məcəlləsinin 53-cü maddəsinin tələbinə uyğun tərtib edilmiş öhdəlik ərizəsi [ərizədə deputatlığa namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü), məhkumluğu, vətəndaşlığı və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar və s., habelə deputat seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir] *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/38 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 2 saylı əlavəyə uyğun);*<br>c) seçicilərin təşəbbüs qrupunun yaradılması barədə yığıncağın protokolu *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/38 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 5 saylı əlavəyə uyğun);*<br>ç) namizədin irəli sürülməsi prosedurunun qanunauyğunluğu. | c) protokolu təsdiq edən fiziki və hüquqi şəxs və ya yığıncağın keçirilməsi üçün yer ayırmış, yaxud protokolu öz möhürü ilə təsdiq etmiş subyekt. |
| ***Namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə:***<br>namizəd tərəfindən verilən səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-2 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 3b saylı əlavəyə uyğun)***.** | vəkalətnaməni təsdiq etmiş notariat ofisi. |

| | |
|---|---|
| ***Bildirişdəki məlumatlar:***<br>a) namizədin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) yaşayış yerinin ünvanı;<br>ç) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>d) əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü);<br>e) təşəbbüs qrupu üzvlərinin soyadı, adı, atasının adı;<br>ə) doğum tarixi;<br>f) yaşayış yerlərinin ünvanı;<br>g) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>ğ) təşəbbüs qrupu üzvlərinin imzası və tarix;<br>h) imza, tarix. | a, b, c, ç, e, ə, f, g) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>d) şəxsin əmək münasibətlərində olduğu qurum və şəxslər; müvafiq vergi orqanları. |
| **Təşəbbüs qrupunun nümayəndəsi təyin edilibsə:**<br>a) təşəbbüs qrupu nümayəndəsinin soyadı, adı, atasının adı;<br>b) yaşayış yerinin ünvanı;<br>c) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti. | a, b, c) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri. |
| **Öhdəlik barədə ərizədəki yoxlanılmalı məlumatlar:**<br>a) namizədin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) yaşayış yerinin ünvanı;<br>ç) təhsili;<br>d) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>e) əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü);<br>ə) siyasi partiyaya mənsubluğu;<br>f) namizədin Azərbaycan Respublikasının vətəndaşı olması;<br>g) namizədin xarici ölkə vətəndaşlığının olub-olmaması;<br>ğ) 5 ildən çox müddət ərzində xarici ölkə ərazisində yaşamaqla əlaqədar əmələ gələn davamlı, möhkəm və sabit münasibətlərlə bağlı başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması;<br>**Namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu** | a, b, c, d, f, g, ğ) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>ç) müvafiq ali təhsil müəssisəsi və ya Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi; respublikadan kənarda təhsil alan şəxslər barəsində olan məlumatlar da Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi vasitəsi ilə;<br>e) şəxsin əmək münasibətlərində olduğu qurum və şəxslər; müvafiq vergi orqanları;<br>ə) siyasi partiyanın daimi fəaliyyət göstərən orqanı (ali orqan, rəhbər orqan, icra aparatı və s.);<br>h, x) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi. |

| | |
|---|---|
| **varsa, ərizədə göstərilmiş yoxlanılmalı məlumatlar:**<br>h) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi;<br>x) xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa, bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı;<br>ı) imza, ərizənin yazılma tarixi. | |

| | |
|---|---|
| **Namizəd siyasi partiya tərəfindən irəli sürüldükdə, dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin və namizədliyin irəli sürülməsi prosedurunun qanunauyğunluğunun yoxlanılması:** | |

| | |
|---|---|
| a) siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surəti;<br>b) siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;<br>c) namizədin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı və müvafiq iclasın protokolu;<br>ç) hər bir namizədin irəli sürülməsinə dair ayrı-ayrılıqda tərtib edilmiş bildiriş *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/40 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 1a saylı əlavəyə uyğun )*;<br>d) deputatlığa namizədliyi irəli sürülən şəxslərin tərcümeyi-halına [soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)] məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatları əks etdirən, habelə deputat seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/40 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 1 saylı əlavəyə uyğun);*<br>e) səlahiyyətli nümayəndələrin təyin edilməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı;<br>ə) siyasi partiyanın səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələri *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-2 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 3c saylı əlavəyə uyğun);*<br>f) siyasi partiyaların səlahiyyətli nümayəndələrinin siyahısı *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-2 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 2 saylı əlavəyə uyğun)*;<br>g) namizədliyin irəli sürülməsi prosedurunun qanunauyğunluğu. | a, b) Ədliyyə Nazirliyi Notariat, qeydiyyat və reyestr baş idarəsi və ya vəkalətnaməni təsdiq etmiş notariat ofisi;<br>c, ç, e, f) siyasi partiyanın daimi fəaliyyət göstərən orqanı (ali orqan, rəhbər orqan, icra aparatı və s.);<br>ə) vəkalətnaməni təsdiq etmiş notariat ofisi.<br>***Qeyd:*** *namizədlərin qeydə alınması işi üzrə dairə seçki komissiyasına təqdim edilmiş vəkalətnamələr müxtəlif ərazilərdə yerləşən bir neçə notariat ofisi tərəfindən təsdiq edilmişdirsə, DSK məlumatların sürətli əldə edilməsi məqsədilə birbaşa notariat ofisi deyil, Ədliyyə Nazirliyinin Notariat, qeydiyyat və reyestr baş idarəsi vasitəsilə də əldə edə bilər.* |

| | |
|---|---|
| **Səlahiyyətli nümayəndələr barədə məlumatlar:**<br>a) səlahiyyətli nümayəndənin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) yaşayış yerinin ünvanı, telefon nömrəsi;<br>ç) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>d) əsas iş yeri və vəzifəsi (bu olmadıqda – fəaliyyət növü);<br>e) səlahiyyəti. | a, b, c, ç) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>d) şəxsin əmək münasibətlərində olduğu qurum və şəxslər; müvafiq vergi orqanları;<br>e) müvafiq siyasi partiya və ya notariat orqanı. |
| **Razılıq barədə ərizədəki məlumatlar:** | |
| a) namizədin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) yaşayış yerinin ünvanı;<br>ç) təhsili;<br>d) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>e) əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü);<br>ə) siyasi partiyaya mənsubluğu;<br>f) namizədin Azərbaycan Respublikasının vətəndaşı olması;<br>g) namizədin xarici ölkə vətəndaşlığının olub-olmaması;<br>ğ) 5 ildən çox müddət ərzində xarici ölkə ərazisində yaşamaqla əlaqədar əmələ gələn davamlı, möhkəm və sabit münasibətlərlə bağlı başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması;<br>**Namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu varsa, ərizədə göstərilmiş yoxlanılmalı məlumatlar:**<br>h) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi;<br>x) xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa, bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı;<br>ı) imza, ərizənin yazılma tarixi. | a, b, c, d, f, g, ğ) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>ç) müvafiq ali təhsil müəssisəsi və ya Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi; respublikadan kənarda təhsil alan şəxslər barəsində olan məlumatlar da Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi vasitəsilə;<br>e) şəxsin əmək münasibətlərində olduğu qurum və şəxslər, müvafiq vergi orqanları;<br>ə) siyasi partiyanın daimi fəaliyyət göstərən orqanı (ali orqan, rəhbər orqan, icra aparatı və s.);<br>h, x) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi. |

| | |
|---|---|
| **Namizəd siyasi partiyalar bloku tərəfindən irəli sürüldükdə dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin, habelə namizədliyin irəli sürülməsi prosedurunun qanunauyğunluğunun yoxlanılması**: | |
| a) siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanlarının iclaslarının) namizəd irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları;<br>b) siyasi partiyaların blokuna daxil olan siyasi partiya nümayəndələri iclasının (qurultaylarının, konfranslarının) siyasi partiyaların bloku adından namizədin irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu;<br>c) hər bir namizədin irəli sürülməsinə dair ayrı-ayrılıqda tərtib edilmiş bildiriş *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/40 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 1a saylı əlavəyə uyğun)*;<br>ç) deputatlığa namizədliyi irəli sürülən şəxslərin tərcümeyi-halına [soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)], məhkumluğuna, vətəndaşlığına dair və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması barədə məlumatlar, habelə deputat seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/40 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 1 saylı əlavəyə uyğun);*<br>d) siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada və ya notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnamələri *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-2 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 3d, 3ə saylı əlavəyə uyğun)*;<br>e) siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin siyahısı *(Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-2 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 2 saylı əlavəyə uyğun)*;<br>ə) namizədliyin irəli sürülməsi prosedurunun qanunauyğunluğu. | a, b, c, ç ) siyasi partiyaların daimi fəaliyyət göstərən orqanı (ali orqan, rəhbər orqan, icra aparatı və s.);<br>d) vəkalətnaməni təsdiq etmiş notariat ofisi.<br>*Qeyd: namizədlərin qeydə alınması işi üzrə dairə seçki komissiyasına təqdim edilmiş vəkalətnamələr müxtəlif ərazilərdə yerləşən bir neçə notariat ofisi tərəfindən təsdiq edilmişdirsə, DSK məlumatların sürətli əldə edilməsi məqsədilə birbaşa notariat ofisi deyil, Ədliyyə Nazirliyinin Notariat, qeydiyyat və reyestr baş idarəsi vasitəsilə də əldə edə bilər.* |
| **Bildirişdəki məlumatlar:** | |
| a) namizədin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) yaşayış yerinin ünvanı; | a, b, c, ç) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri; |

| | |
|---|---|
| ç) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>d) əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü);<br>e) imza, tarix. | d) şəxsin əmək münasibətlərində olduğu qurum və şəxslər; müvafiq vergi orqanları. |
| **Razılıq barədə ərizədəki məlumatlar:**<br>a) namizədin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) yaşayış yerinin ünvanı;<br>ç) təhsili;<br>d) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>e) əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü);<br>ə) siyasi partiyaya mənsubluğu;<br>f) namizədin Azərbaycan Respublikasının vətəndaşı olması;<br>g) namizədin xarici ölkə vətəndaşlığının olub-olmaması;<br>ğ) 5 ildən çox müddət ərzində xarici ölkə ərazisində yaşamaqla əlaqədar əmələ gələn davamlı, möhkəm və sabit münasibətlərlə bağlı başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması;<br>**Namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu varsa, ərizədə göstərilmiş yoxlanılmalı məlumatlar:**<br>h) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi;<br>x) xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa, bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı;<br>ı) imza, ərizənin yazılma tarixi.<br><br>**Səlahiyyətli nümayəndələr barədə məlumatlar:**<br>a) səlahiyyətli nümayəndənin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) yaşayış yerinin ünvanı, telefon nömrəsi;<br>ç) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>d) əsas iş yeri və vəzifəsi (bu olmadıqda – fəaliyyət növü); | a, b, c, d, f, g, ğ) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>ç) müvafiq ali təhsil müəssisəsi və ya Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi; respublikadan kənarda təhsil alan şəxslər barəsində olan məlumatlar da Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi vasitəsilə;<br>e) şəxsin əmək münasibətində olduğu qurum və şəxslər, müvafiq vergi orqanları;<br>ə) siyasi partiyanın daimi fəaliyyət göstərən orqanı (ali orqan, rəhbər orqan, icra aparatı və s);<br>h, x) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi.<br><br>a, b, c, ç) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>d) şəxsin əmək münasibətlərində olduğu qurum və şəxslər; müvafiq vergi orqanları;<br>e) müvafiq siyasi partiyalar bloku və ya notariat orqanı. |

| | |
|---|---|
| e) səlahiyyəti. | |

| | |
|---|---|
| ***II mərhələ – Namizədin qeydə alınması*** | |
| **İrəli sürülmüş namizədlərin qeydə alınması üçün namizəd və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək müvafiq seçki komissiyasına aşağıdakı seçki sənədlərini təqdim etməlidir (Seçki Məcəlləsinin 58.1-ci maddəsi):**<br>**- irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri (Seçki Məcəlləsinin 58.1.1-ci maddəsi);**<br>**- seçici imzaları toplanmasının yekunu haqqında Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada tərtib edilmiş protokolun 2 nüsxəsi (Seçki Məcəlləsinin 58.1.2-ci maddəsi);**<br>**- Seçki Məcəlləsinin 53.3-cü və 54.8-ci maddələrinə uyğun olaraq namizəd haqqında təqdim edilmiş məlumatlarda dəyişikliklər barədə bildiriş (Seçki Məcəlləsinin 58.1.3-cü maddəsi);**<br>**- namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat (Seçki Məcəlləsinin 58.1.4-cü maddəsi);**<br>**- gəlirlərin alındığı təşkilatlardan həmin gəlirlərin illik cəmi barədə arayış (Seçki Məcəlləsinin 58.3-cü maddəsi);**<br>**- mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat (Seçki Məcəlləsinin 58.1.5-ci maddəsi);**<br>**- namizədin ilkin maliyyə hesabatı (seçici imzaları toplanmasının təşkilinə sərf edilən vəsaitlər göstərilməklə) (Seçki Məcəlləsinin 58.1.6-cı maddəsi);**<br>Seçki komissiyaları seçki sənədlərini qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürü ilə təsdiqləyir, təqdim olunmuş imza vərəqələri sayının seçici imzaları toplanmasının yekunu haqqında protokola uyğunluğunu yoxlayır, sonra isə onların qəbuledilmə tarixini və vaxtını qeyd edərək, namizədə və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə qəbul edilmiş imza vərəqələrinin və oradakı imzaların sayını göstərməklə sənədlərin qəbulu barədə yazılı arayış verir (Seçki Məcəlləsinin 58.4-cü maddəsi) *(Azərbaycan Respublikası Mərkəzi* | |

| | |
|---|---|
| *Seçki Komissiyasının 4 iyul 2005-ci il tarixli 13/45 saylı Qərarı ilə təsdiq edilmiş Təlimata 2 saylı əlavəyə uyğun).* | |
| ***İmza toplayan subyektlər:***<br>a) namizədin özü, səlahiyyətli nümayəndələr;<br>b) seçici imzalarını müqavilə əsasında toplayan şəxslər;<br>c) siyasi partiyanın və siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri. | |
| ***İmza toplamış şəxsə aid məlumat və tələblər:*** | |
| a) imza toplamış şəxsin soyadı, adı, atasının adı;<br>b) yaşayış yerinin ünvanı;<br>c) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>ç) 18 yaşına çatmış aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı olması;<br>d) imza toplamağa səlahiyyəti olması;<br>e) şəxsin imzası və imzanın qoyulduğu tarix. | a, b, c, ç) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>e) qanunvericiliyə və bu Qaydalara uyğun yoxlanılmalıdır. |
| ***İmza toplanmasına dair tələblər və onların yoxlanılmasının mümkünlüyü:*** | |
| a) əgər imzaları namizəd özü toplayıbsa, yalnız özü haqqında məlumatlar və Seçki Məcəlləsinin 57.1-ci maddəsinin tələblərinə əməl olunması;<br>b) əgər imzaları səlahiyyətli nümayəndə toplayıbsa, onun haqqında məlumatlar və vəkalətnaməyə dair tələblərin bu Qaydalara uyğun olması;<br>c) əgər imzalar müqavilə əsasında digər şəxs tərəfindən toplanıbsa, onda tərəflər arasında müqavilənin mövcud olması və qanunauyğunluğu, imza toplayan şəxs haqqında məlumatlar və ona ödənilən (ödəniləcək) məbləğə dair təsdiqedici sənəd, həmin şəxsin imza toplayan subyektə aid tələblərə uyğunluğu və Seçki Məcəlləsinin 57.1-ci maddəsinin tələblərinə əməl olunması;<br>ç) əgər imzalar siyasi partiya və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən toplanıbsa, onun siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi olması barədə təsdiqedici sənəd, həmin şəxsin imza toplayan subyektə aid olan tələblərə uyğunluğu və Seçki Məcəlləsinin 57.1-ci maddəsinin tələblərinə əməl olunması.<br>***Qeyd**: siyasi partiyalar və siyasi partiyaların bloku tərəfindən namizəd irəli sürülərkən təqdim edilmiş məlumatların düzgün olmamasına görə əsas (Seçki* | a, b, ç) qanunvericiliyə və bu Qaydalara uyğun;<br>c) müqavilə – onu təsdiq edən orqan, ödəniş – müvəkkil bank vasitəsilə, həmin şəxsin imza toplayan subyektə aid olan tələblərə uyğunluğu isə bu Qaydalara müvafiq yoxlanılmalıdır. |

| | |
|---|---|
| *Məcəlləsinin 60.2.3-cü maddəsi) o vaxt tətbiq edilə bilər ki, səhv məlumatlar namizədin təqsiri üzündən təqdim edilmiş olsun.* | |
| ***İrəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri*** | |
| İmza vərəqəsinin Seçki Məcəlləsinə 1 və 1 "A" saylı, habelə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 23 iyun 2004-cü il tarixli 6/45 saylı Qərarı ilə təsdiq edilmiş Qaydalara 2, 2a saylı əlavələrin forma və məzmununa uyğunluğu. | |

| **İmza vərəqəsində yoxlanılması mümkün olan məlumatlar:** | |
|---|---|
| **1. Seçki dairəsinin adı.**<br>**2. Seçiciyə aid olan məlumat və tələblər:**<br>a) imza edən vətəndaşın soyadı, adı, atasının adı;<br>b) doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün);<br>c) yaşayış yerinin ünvanı;<br>ç) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi, verilmə tarixi və ya etibarlılıq müddəti;<br>d) imza və onun qoyulduğu tarix;<br>e) seçki günü 18 yaşına çatmış aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı olması;<br>ə) namizədin irəli sürüldüyü seçki dairəsinin ərazisində daimi yaşaması;<br>f) namizədliyin müdafiəsi üçün qoyulmuş imzanın yalnız seçiciyə məxsus olması;<br>g) Seçki Məcəlləsinin 57.1-ci maddəsinin tələblərinə əməl olunması.<br><br>***Qeyd:*** *namizədin müdafiəsi üçün imza qoyulması hüququ yalnız seçicinin özünə məxsusdur.* | a, b, c, ç, e, ə) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>d, f, g) qanunla müəyyən olunmuş qaydada. |
| **3. Namizədə aid məlumatlar:**<br>a) namizədin soyadı, adı, atasının adı;<br>b) doğum tarixi;<br>c) əsas iş və ya xidmət yeri və ya tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü);<br>ç) yaşayış yerinin ünvanı; | a, b, ç,) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>c) şəxsin əmək münasibətlərində olduğu qurum və şəxslər; müvafiq vergi orqanları; |

| | |
|---|---|
| d) irəli sürüldüyü seçki dairəsinin sıra sayı və adı;<br>e) şəxsi imzası;<br>ə) imzanın qoyulduğu tarix;<br>f) namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, onun mühakimə olunduğu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin nömrəsi və adı;<br>g) xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa, bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adının göstərilməsi;<br>ğ) əgər namizədi siyasi partiya və ya siyasi partiyaların bloku irəli sürübsə, imza vərəqəsində siyasi partiyanın və ya siyasi partiyalar blokunun adı. | e, ə) qanunvericiliyə və bu Qaydalara uyğun;<br>f, g) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi;<br>ğ) Mərkəzi Seçki Komissiyası; müvafiq siyasi partiyanın daimi fəaliyyət göstərən orqanı (ali orqan, rəhbər orqan, icra aparatı və s.). |

| | |
|---|---|
| **4. İmza toplamış şəxsə aid məlumat və tələblər:**<br>a) soyadı, adı, atasının adı;<br>b) yaşayış yerinin ünvanı;<br>c) şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;<br>ç) şəxsin imzası və imzanın qoyulduğu tarix;<br>d) 18 yaşına çatmış aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı olması;<br>e) imza toplamağa səlahiyyəti olması. | a, b, c, ç) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və ya rayon polis idarələrinin müvafiq qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələri;<br>d, e) qanunvericiliyə və bu Qaydalara uyğun. |
| **Seçici imzalarının toplanmasının yekunu haqqında Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada tərtib edilmiş protokol:**<br>a) bu Qaydaların 2 saylı və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında Təlimat”ın 1 saylı əlavəsinə uyğunluğu;<br>b) 2 nüsxədə olub-olmaması. | |

| | |
|---|---|
| **Namizəd haqqında təqdim edilmiş məlumatlarda dəyişikliklər barədə bildirişdəki yoxlanılmalı məlumatlar** | Müvafiq məlumatlara və onların yoxlanılması qaydalarına uyğun. |
| **Namizədin gəlirlərinin miqdarı və mənbələri barədə yoxlanılmalı məlumatlar:**<br><br>*(Seçki Məcəlləsinin tələbinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 15 may 2015-ci il tarixli 9/84 saylı Qərarı ilə təsdiq edilmiş Qaydaya 1 saylı əlavəyə uyğun):*<br>a) əsas iş yerindən əmək haqqı barədə arayış;<br>b) mükafat və maddi yardım haqqında arayış;<br>c) mülki-hüquqi müqavilələrdən əldə edilən gəlir haqqında arayış;<br>ç) sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir haqqında arayış;<br>d) qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir haqqında arayış.<br><br>***Qeyd**: bu məlumatlar müvafiq komissiyalar tərəfindən göstərilən orqanlara və şəxslərə müraciət etmək yolu ilə əldə edilə bilər.* | a, b, c, ç, d) şəxsin əmək və müqavilə münasibətlərində olduğu qurum və şəxslər; müvafiq vergi orqanları. |

| | |
|---|---|
| **Mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat** (Seçki Məcəlləsinə 5 saylı əlavəyə uyğun forma və məzmunda). | |
| **Daşınmaz əmlak:**<br>a) torpaq sahəsi;<br>b) yaşayış sahəsi;<br>c) mənzillər;<br>ç) bağlar;<br>d) qaraj, digər bina, tikili və avadanlıq. | a, b, c, ç, d) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, onun qurumları və bələdiyyə orqanları. |
| **Nəqliyyat vasitələri:**<br>a) minik avtomobilləri;<br>b) yük avtomobilləri;<br>c) digər nəqliyyat vasitələri. | a, b, c) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi. |
| **Namizədin ilkin maliyyə hesabatı**<br>namizədin müdafiəsi üçün seçici imzalarının toplanmasının təşkilinə sərf etdiyi vəsait (məbləği göstərilməklə). | müvəkkil bank |

## İmza vərəqələrindəki imzaların düzgünlüyünün yoxlanılması barədə

## P R O T O K O L

Deputatlığa namizədliyi irəli sürülmüş vətəndaş ___________________
*(soyadı, adı, atasının adı)*
______________________________________ müdafiəsi üçün ______ saylı __________________________ seçki dairəsinin dairə seçki komissiyasına təqdim edilmiş imza vərəqələrindəki imzaların düzgünlüyünün yoxlanılması nəticəsində məlum olmuşdur:

1. Təqdim edilmiş imza vərəqələrinin sayı ..................................____
2. Ərazilərində imza toplanmış seçki dairələrinin sayı.................____
3. Təqdim edilmiş imzaların sayı ................................................____
4. Yoxlanılmış imzaların sayı ......................................................____
5. Yoxlanılmamış imzaların sayı .................................................____
6. Etibarlı hesab edilmiş imzaların sayı ......................................____
7. Etibarsız hesab edilmiş imzaların sayı ...................................____

*O cümlədən aşağıdakı səbəblərdən:*

- bir imza istisna olmaqla təkrar imzalar......................................____
- seçki komissiyasına bildiriş göndərilənədək imza vərəqələrinə daxil edilmiş seçici imzaları.......................................................................____
- əl yazısı ilə qoyulmayan və ya karandaşla qoyulan imzalar.........____
- imza vərəqəsini təsdiq edən şəxslər tərəfindən seçici imzalarının qoyulması tarixində edilən düzəlişlər təsdiqlənməmiş imzalar................____
- məlumatları qeyri-düzgün göstərilən seçicilərin imzaları..............____
- seçki hüququ olmayan (18 yaşına çatmamış vətəndaşlar, fəaliyyət qabiliyyətsiz və məhdud fəaliyyət qabiliyyətli şəxslər, əcnəbilər və qanunla müəyyən edilmiş digər şəxslər) vətəndaşların imzaları..........................____
- imza vərəqəsində doldurulmalı olan, lakin tam doldurulmamış sətirlərdə olan imzalar.......................................................................____

- Seçki Məcəlləsinin tələbinə uyğun gəlməyən yazı aşkar edilmiş sırada olan imzalar.........................................................................................____

- müxtəlif şəxslərin adından bir şəxs tərəfindən və ya bir şəxsin adından müxtəlif şəxslər tərəfindən qoyulmuş imzalar........................................____

- 57.1-ci maddənin tələbinin pozulması ilə əlaqədar etibarsız hesab edilmiş imzalar.........................................................................................____

- imza vərəqələri imza toplayan şəxsin, habelə namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinin əl yazısı qaydasında imzası ilə təsdiq edilməyibsə və ya səlahiyyətli nümayəndənin imzası qeyri-düzgündürsə, etibarsız sayılan imzalar................................____

- digər səbəblərdən....................................................................____

**İşçi qrupunun rəhbəri**: __________ ________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. İmza vərəqələrində pozulmuş imzalar, bu barədə vərəqələrdə imza toplayanlar tərəfindən müvafiq qeyd aparıldıqda yoxlanılmır və nəzərə alınmır.*
*2. İmza vərəqələrində müəyyən edilmiş qaydada aparılan düzəliş və qeydlər imzaların etibarsız hesab edilməsinə səbəb olmur.*
*3. Eyni şəxsin bir neçə imzası aşkar edilərsə, yalnız bir imza etibarlı, digər imzalar isə qeyri-düzgün sayılır.*
*4. İmzalar Seçki Məcəlləsinin 147.1-ci maddəsinin tələblərinin pozulması ilə (toplanan seçici imzalarının əhatə dairəsi namizədin irəli sürüldüyü seçki dairəsinin ərazisindən kənara çıxırsa və toplanan imzaların sayı 450-dən azdırsa) toplanmışdırsa, həmin imzalar yoxlanılmır və seçici imzalarının lazımi saydan az olmasına bərabər tutulur.*